# İŞGƏNCƏ VERMƏ ƏMƏLLƏRİNİN SUBYEKTİV ƏLAMƏTLƏRİ

**F.H.MİRƏLƏMOV**
*Bakı Dövlət Universiteti*

İşgəncə vermə əməllərinin subyektiv əlamətlərinin təhlilinə keçməzdən əvvəl, ümumiyyətlə, cinayəti səciyyələndirən məsələlər üzərində dayanmağı məqsədəuyğun hesab edirik.

Məlum olduğu kimi, cinayət məsuliyyətinin subyektiv əsasını təqsir təşkil edir. Təqsirin formaları olan qəsd və ya ehtiyatsızlıq isə hər bir cinayətin zəruri tərkib elementidir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 24.1-ci maddəsinə uyğun olaraq əməli (hərəkət və ya hərəkətsizliyi) yalnız qəsdən və ya ehtiyatsızlıqdan törətmiş şəxs cinayət törətməkdə təqsirli sayılır.

Qəsdən və ehtiyatsızlıq cinayət tərkibinin elementləri qismində şəxsin cinayət qanunu ilə cəzalanmalı olan nəticəyə psixi münasibətinin cinsi müəyyənliyində birləşirlər. Bu zaman qəsdin və ehtiyatsızlığın anlaqlı şəxsin cinayətkar nəticəyə psixi münasibətinin formasını yaratması qeyd-şərtinə xüsusi yanaşmaya ehtiyac qalmır və bu, zərurət təşkil etmir. Hüquq ədəbiyyatında göstərilir ki, ancaq idrak nəzəriyyəsi mövqeyindən insanın psixi münasibəti kimi təqsiri, cinayətin motiv və məqsədini düzgün anlamaq olar. Cinayətin subyektiv cəhəti psixi proses və psixi münasibət kimi kriminal əməlin törədilməsilə bağlı olur, onun ünsürü kimi meydana gəlir, mövcud olur. Kriminal əmələ qədər əmələ vadar edən daxili tələbatlar-əməlin motiv və məqsədi formalaşır, faktiki törədiləcək əməlin subyektiv elementləri şüurda inkias edilir, ona seçici, fəal, müsbət, yaxud da mənfi psixoloji münasibət ifadə olunur (1, s. 86-87).

Yuxarıda göstərilən psixoloji inkias, həmçinin də təqsirkarın cinayətkar nəticəyə psixoloji münasibətini ifadə etdiyinə görə, o cümlədən təqsir də subyektin qəsd etdiyi və qanunla mühafizə olunan sosial, maddi sərvətlərə münasibətinin ifadəsi kimi çıxış edir. Cinayətin subyektiv cəhətinin zəruri elementi olan təqsir həm törədilmiş cinayətin, həm də müəyyən növdən olan ictimai təhlükəli əməlin subyektiv cəhətini səciyyələndirən tərkib əlamətləri kimi fərqləndirilir. Cinayətin subyektiv cəhətini səciyyələndirən tərkib əlamətləri təqsiri (qəsd və ya ehtiyatsızlığı), cinayətin motiv və məqsədini nəzərdə tutur, ictimai təhlükəli əməldə bunların mövcud olub-olmamasını araşdırıb müəyyən etməyi, törədilmiş konkrpet əməldə şəxsin təqsirinin olub-olmadığını aydınlaşdırmağı tələb edir. Başqa sözlə, təqsir, motiv və məqsəd, həmçinin bunları müşayiət edən emosional vəziyyət cinayətin subyektiv cəhətini yaradan elementlərdir. Bunlar müstəqil psixoloji hadisələrdir və adətən, onların biri-digərini tərkib hissəsi qismində əhatə etmirlər.

Cinayətin subyektiv elementlərinin hüquqi təbiəti barəsində məsələ ilə əlaqədar hüquq ədəbiyyatında fikir ayrılıqları demək olar ki, həmişə mövcud olmuşdur. Belə ki, müəlliflərin bir qismi cinayətin motiv və məqsədini təqsirin məzmununa daxil edir və cinayətin subyektiv cəhəti ilə təqsirin eynimənalı anlayışdan ibarət olmasında təkid edirlər (2). İkinci qisim müəlliflərin fikrincə isə, təqsir cinayətin subyektiv cəhətinin mühüm hissəsidir, lakin subyektiv cəhətin məzmununu tam əhatə etmir. Cinayətin subyektiv cəhətinə təqsirlə yanaşı, həmçinin motiv, məqsəd və emosiyalar da müstəqil element qismində daxil olur (3, s. 177).

Fikrimizcə, yuxarıdakı mövqelərin düzgünlüyü baxımından ikinci qrup müəlliflərin mülahizələri ilə razılaşmaq məqsədəuyğun olardı. Cinayətin motiv və məqsədi təqsirlə bağlı psixi fəaliyyətdən zaman etibarı ilə əvvəl başlayır və təqsirlə əlaqədar psixi fəaliyyətlə qovuşur, onu müşayiət edir. Məsələn, motiv kriminal davranışın subyektiv səbəbi kimi cinayət əməlindən əvvəl yaranır, şəxsi ictimai təhlükəli əməli törətməyə təhrik edir və törədilmiş əməldə maddiləşir. Təqsirin, motiv və məqsədin fərqli psixoloji funksiyaları vardır. Buna görə də motiv və məqsədi qəsd və ehtiyatsızlıq formasında psixi münasibətin məzmununa müncər etmək düzcün olmazdı.

Cinayətin subyektiv cəhətinin məzmunu, daha doğrusu onun təqsirlə qarşılıqlı münasibət məsələsi cinayət hüququ elmində hələ də mübahisəli problemlərdən biri olaraq qalmaqdadır.

Bəzi hüquqşünas-tədqiqatçıların mövqeyinə görə, təqsir və cinayətin subyektiv cəhəti anlayışları eynilik təşkil edir. Belə ki, güman edildiyinə görə insanın əqli-iradəvi fəaliyyəti motivləşdirmə və emosional fəaliyyətlə sıx surətdə bağlıdır. Belə mövqeyi P.S. Dagel daha ardıcıl şəkildə müdafiə edir və həmin mövqeyi əsaslandırmağa səy göstərərək yazırdı: «...təqsir cinayətin daxili, subyektiv cəhəti, subyektin törədilən cinayətdə iradə ifadəsini tapan öz ictimai təhlükəli hərəkətinə və onun nəticələrinə olan psixi münasibətidir» (5, s. 78). P.S.Dagel bu müddəanı aşağıdakı kimi əsaslandırırdı: «Cinayətin subyektiv cəhətinin təqsirlə kifayətlənməməsi və özünə, təqsirlə yanaşı, cinayətin motivini və məqsədini də daxil etməsi haqqında baxış cinayətin subyektiv cəhətinin (təqsirin) və cinayət tərkibinin bu subyektiv cəhətini (qəsd, ehtiyatsızlıq, motiv, məqsəd, affekt, bilərəkdən etmə və s.) səciyyələndirən əlamətlərinin qarışdırılmasına, edəcə də təqsirin məzmunu və forması anlayışlarının qarışıq salınmasına ... əsaslanır» (6, s. 123).

A.İ.Raroqun yuxarıda göstərilən mövqeyinin kifayət qədər inandırıcı olmaması və onun praktiki olaraq qəbul edilməsinin qeyri-mümkünlüyü haqqında fikri ilə razılaşmaq lazımdır (7, s. 53-55). A.İ.Raroq yazır: «...təqsirin cinayətin subyektiv cəhəti ilə eyniləşdirilməsi təqsirin xarakterinə uyğun gəlmir. Şəxsin yalnız onun təqsirinin müəyyən edildiyi əməllərə görə cinayət məsuliyyətinə cəlb edilməsi göstərişi əməldə qəsdin və ya ehtiyatsızlığın müəyyənləşdirilməsi zərurəti yekdilliklə izah edilir... Əməli qəsdən və ehtiyatsızlıqdan törətmiş şəxs cinayət törətməkdə təqsirli sayılır. Buradan qəti olaraq belə bir nəticə çıxır ki, təqsirə qəsdin və ya ehtiyatsızlığın cinsi anlayışı kimi baxılır və heç bir başqa psixoloji məqam təqsir anlayışına daxil edilmir...» (8, s. 211).

Qeyd etmək lazımdır ki, belə ümumiləşdirmələrin arxasında hansı amillərin dayandığı isə aydınlaşdırılmamış qalır. Təqsirə qəsd və ehtiyat-

sızlıqla yanaşı, motivin, məqsədin, emosiyaların və dairəsi dəqiq müəyyən olunmamış digər psixoloji əlamətlərin daxil edilməsi təqsirin forması ilə bağlı məsələnin həllini dolaşığa salır və bu əlamətləri subyektiv cəhətin əlamətləri qismində müstəqillikdən məhrum edir. Cinayətin hazırlanması və törədilməsi prosesində şəxsin emosiyası onun motiv və məqsədinin formalaşmasına ciddi təsir göstərdiyi hallarda, yaxud da onların formalaşması prosesində həlledici rola malik olduqda, belə hallarda insanın emosiyasına hüquqi əhəmiyyət verilməsi lazımdır.

Yuxarıda göstərilənlər nöqteyi-nəzərindən cinayətin subyektiv cəhəti mühüm hüquqi əhəmiyyətə malikdir. Məhz subyektiv cəhətin köməyi sayəsində bir sıra praktiki əhəmiyyət kəsb edən hüquqi məsələlərin uğurlu həllinə nail olunur. Cinayət məsuliyyətinin əsaslarının tərkib hissəsi kimi subyektiv cəhətin köməyi sayəsində cinayət hesab olunan əməllər cinayətə bənzəyən, lakin cinayət hesab olunmayan əməllərdən fərqləndirilir. Belə ki, təqsirlə əhatə olunmayan ictimai təhlükəli nəticə ilə bağlı əməllərin törədilməsi, həmçinin ancaq qəsdən törədilməsi kriminal sayılan əməllərin ehtiyatsızlıqla törədilməsi, eləcə də qanunla kriminallığı müəyyən məsələ, motivlə, yaxud da şəxsi niyyətlə əlaqələndirilən əməllərin belə motiv və məqsəd, niyyət olmadan törədilməsi cinayət hesab olunmur.

Digər tərəfdən, obyektiv əlamətlərinə görə bir-birinə bənzəyən cinayətkar qəsdlər məhz subyektiv cəhətin əlamətləri əsasında bir-birindən fərqləndirilir. Belə hallarda subyektiv cəhət daha dərindən və diqqətlə araşdırılmalıdır. Çünki əmələ düzgün hüquqi qiymətin verilməsi başqa elementlərlə yanaşı, daha çox subyektiv cəhətdən asılı olur.

Cinayətin subyektiv əlamətləri həm də ona görə böyük hüquqi əhəmiyyətə malikdir ki, məhz cinayətin subyektiv cəhətinin düzgün müəyyən edilməsi nəticəsində digər zəruri məsələlər həll olunur. Belə ki, cinayətin subyektiv cəhətinin düzgün müəyyənləşdirilməsinin həm tövsif, həm də cəzanın təyin edilməsi, cinayət məsuliyyətindən və cəzadan azadetmə, islah müəssisəsi növünün müəyyən olunması, eləcə də cinayət hüququnun qanunçuluq, təqsirə görə məsuliyyət, ədalət, hümanizm kimi prinsiplərinə əməl edilməsi üçün böyük hüquqi əhəmiyyəti vardır. Bütün bu göstərilənlər insanın, vətəndaşın konstitusiya hüquq və azadlıqlarının, habelə qanunla qorunan mənafelərinin müdafiə olunması baxımından mühüm siyasi-hüquqi əhəmiyyət kəsb edir.

Həhayət, hüquq ədəbiyyatında qeyd olunduğu kimi, kriminal əməlin xarakteri (niyyətin ictimai münasibətlərə zərər yetirilməsinə yönəldilməsi) subyektiv cəhətin köməyi ilə müəyyən olunur. Eləcə də cinayətin ictimai təhlükəliliyi, təqsirkarın şəxsiyyətinin təhlükəliliyi xeyli dərəcədə təqsirin məzmunundan, təqsirin dərəcəsindən asılıdır (1, s. 89).

Hələ sovet dövlətinin varlığı dövründə keçmiş SSRİ Ali Məhkəməsi plenumlarının rəhbər və izahedici qərarlarında cinayətin subyektiv əlamətlərinin ətraflı və düzgün araşdırılması ilə bağlı bir çox tövsiyə və göstərişlər öz ifadəsini tapmışdı. Həmin tövsiyələr praktikada və hüquq-mühafizə orqanlarının əməli fəaliyyətində az əhəmiyyət kəsb etməmişdir. Məsələn, SSRİ Ali Məhkəməsi Plenumunun bir sıra qərarlarında cinayətin subyektiv cəhətinin, xüsusilə də qəsdən və ehtiyatsızlıqdan törədilən cinayətlər arasında fərq qoyulmasının və qəsdin məzmununun, onun istiqamətinin, cinayətin motiv və məqsədinin

ətraflı öyrənilməsinin zəruriliyinə diqqət yetirilirdi (9, s. 413-778, 882-888).

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 133-cü maddəsində nəzərdə tutulmuş işgəncə vermə əməlləri subyektiv cəhətdən düzgün qəsdlə törədilir. Təqsirkar öz əməlinin ictimai təhlükəli olduğunu dərk edir, bunun zərər çəkmiş şəxsə güclü fiziki ağrılar və ya psixi iztirablar yetirəcəyini qabaqcadan görür və belə zərərli nəticənin meydana çıxmasını arzu edir (düzünə qəsd), yaxud həmin zərərli nəticənin meydana çıxmasına şüurlu surətdə yol verir (yanakı qəsd).

Burada düzünə qəsd işgəncə vermə əməlində təqsirin ən təhlükəli forması qismində çıxış edir. İşgəncə vermə qəsdin hansı dəqiq vurulacağını və cinayətkar nəticənin məhz hansı məqamda meydana çıxacağını şəxsən bilməyədə də bilər. Bunu cinayət qanununun özü də tələb etmir. Lakin təqsirkar törətdiyi hərəkətlərin məhz zərərli nəticələrə aparıb çıxaracağını qabaqcadan görür. O, dəqiq bilir ki, zərər çəkmiş şəxsi zərərli şəraitdə saxlama, ona uzun müddət ərzində ağrılar yetirmə, yeməkdən və sudan məhrum etmək və bunlara bənzər sair hərəkətlər törətmək sonda cinayətkar nəticələr verməyə bilməz.

Yuxarıda göstərilən xüsusiyyətlər işgəncə vermə əməllərinin düzünə qəsdlə törədildiyi hallları səciyyələndirir. Bu nöqteyi-nəzərdən işgəncə vermə əməllərinin yanakı qəsdlə törədilməsi məsələsinin aydınlaşdırılmasında bəzi mürəkkəbliklər meydana çıxır. Qeyd etmək lazımdır ki, cinayət hüququ (Xüsusi hissə) dərsliklərində qəsdin bu son dərəcə mürəkkəb növünün təhlili və onun qiymətləndirilməsi kifayətedici səviyyədə aparılmamışdır. Belə ki, düzünə qəsddən fərqli olaraq, yanakı qəsddə cinayətkar nəticələrin meydana çıxmasını «arzu etmək» deyil, onların meydana çıxmasına «şüurlu olaraq yol vermə» müəyyən edilir. Yəni zərər çəkmiş işgəncə verən təqsirkar cinayətkar nəticələrin meydana çıxmasını yanakı qəsddə arzu etməsə də, onların meydana çıxmasına şüurlu surətdə yol verir. Bu, həm də zərərli nəticələrin baş verməsinə əlverişli şərait yaratma kimi qiymətləndirilə bilər.

Təqsirin formaları Azərbaycan Respublikası cinayət qanunvericiliyinin Ümumi hissəsində dəqiqləşdirilmişdir. Belə ki, Cinayət Məcəlləsinin 25.2-ci maddəsinə uyğun olaraq şəxs öz əməlinin (hərəkət və ya hərəktsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş və bunları arzu etmişdirsə, bu halda cinayət birbaşa qəsdlə törədilmiş hesab olunur.

Cinayət Məcəlləsinin 25.3-cü maddəsində göstərilir ki, şəxs öz əməlinin (hərəkət və hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş, lakin bunları arzu etməmiş və belə nəticələrin baş verməsinə şüurlu surətdə yol vermişdirsə, bu halda cinayət dolayı qəsdlə törədilmiş hesab olunur.

Əgər yuxarıda göstərilənlər Cinayət Məcəlləsinin 133-cü maddəsində nəzərdə tutulmuş işgəncə vermə əməlinin subyektiv cəhətdən dolayı qəsdlə törədilməsinə şamil olunursa, belə nəticəyə gəlmək olar ki, təqsirkar zərər çəkmiş şəxsi zərərli şəraitdə saxlamaqla zərərli nəticələrin baş verməsini arzu etməmiş, lakin onların meydana çıxmasına şüurlu surətdə yol vermişdir. Fikrimizcə, belə mövqe ilə razılaşmaq olmaz. Cinayət Məcəlləsinin 133-cü maddəsində nəzərdə tutulmuş əməl yalnız düzünə qəsdlə törədilə bilər. Çünki təqsirkarın arzu edib-etməməsindən asılı olmayaraq, zərərli şəraitdə saxlanması zamanı təqsirkarın cinayətkar nəticələrin meydana çıxacağını bilməməsi

ağılasığmazdır. Məhz bu nöqteyi-nəzərdən o, belə hərəkətləri ilə meydana çıxacaq zərərli nəticələrə şüurlu olaraq yol verməк deyil, yalnız onları arzu edir. Deməli, Cinayət Məcəlləsinin 133-cü maddəsində nəzərdə tutulmuş əməl yalnız düzünə qəsdlə törədilə bilər.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 133-cü maddəsində nəzərdə tutulmuş işgəncə vermə əməli ən müxtəlif motivlər əsasında törədilə bilər. İntiqam almağı, düşmənçilik münasibətlərini, bir-birinə qarşılıqlı nifrəti, birgə yaşama mühitində yaranmış qeyri-sağlam iqlimi, qısqanclığı və s. belə motivlərə aid etmək olar.

Cinayətin subyekti məsələsi Azərbaycan Respublikasının cinayət hüququ elmində diqqət mərkəzində olan problemlərdən biridir. Bu məsələ sözün həqiqi mənasında ətraflı diqqət yetirilməli olan problemlərdən biridir. O, həm də cinayət tərkibi haqqında təlimin mühüm tərkib hissəsidir. Məhz bu nöqteyi-nəzərdən tam müəyyənliklə qeyd etmək zəruridir ki, insan olmayan yerdə cinayətin təqsirkarı da yoxdur. Deməli, cinayətkarın olmadığı halda cinayət tərkibi haqqında söhbət gedə bilməz.

Digər tərəfdən, qanunla müəyyən edilmiş yaş həddinə çatmış anlaqlı şəxsin olmadığı halda nəinki cinayət tərkibi, həmçinin də cinayət məsuliyyəti haqqında məsələnin özü barəsində danışmaq istisna olunur. Çünki anlaqsız vəziyyətin özü də (ictimai təhlükəli əməl faktiki olaraq törədildikdə belə) cinayət məsuliyyətinin meydana çıxmadığını təsdiqləyən amillərdən biridir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 19-cu maddəsinə uyğun olaraq Cinayət Məcəlləsi ilə müəyyən olunmuş yaş həddinə çatmış və cinayət törətmiş anlaqlı şəxs cinayət məsuliyyətinə cəlb edilir. Cinayət qanunu bunun hər hansı alternativ variantını nəzərdə tutmamışdır.

Subeyktlə bağlı digər məsələ anlaqlıq məsələsidir. Çünki insanın psixi vəziyyəti onun etdiyi hərəkətlərə, yaxud törətdiyi konkret cinayətkar akta görə cavab vermək iqtidarında olub-olmamasını, habelə öz hərəkətlərinin mənasını və mahiyyətini dərk edib-etməməsini əks etdirir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 21.1-ci maddəsinə uyğun olaraq ictimai təhlükəli əməl (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman anlaqsız vəziyyətdə olmuş, yəni xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllıq və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini dərk etməyən və ya onu idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilmir.

Yuxarıda göstərilənlər əsasında söyləmək olar ki, Azərbaycan Respublikası cinayət Məcəlləsinin 133-cü maddəsində nəzərdə tutulmuş işgəncə vermə əməlinin subyekti cinayətin törədildiyi anda 16 yaşına çatmış anlaqlı şəxs ola bilər.

**ƏDƏBİYYAT**


1. Səmədərov F.Y. Cinayət hüququ (Cinayət və cəza məsələləri). BDU, 1994.
2. Дагель П.С., Котов Д.П. Субъективная сторона преступления и ее установление. Воронеж: 1974; Кригер Г.А. Понятие и содержание вины в советском уголовном праве. Вести МГУ, Сер. Право, 1983.
3. Советское уголовное право. Часть Общая. М.: Юрид. лит., 1982. Советское уголовное право. Общая часть: М.: Юрид. лит., 1981.
4. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Bakı: Hüquq ədəbiyyatı, 2002; Рарог А.И. Проблемы субъективной стороны преступления. Учебное пособие. М.: МЮИ, 1991; yenə onun: Квалификация преступлений по

субъективным признакам. СПб., Юрид. центр Пресс, 2003; Якушин В.А. Субъективное вменение и его значение в уголовном праве. Тольятти: 1998; Лазебник Ю.В. Состав преступления и его элементы. Минск: 2000; Поливцев А.Н., Соловьев А.Н., Ставило С.П. Состав преступления: структура и характеристика элементов. Учебное пособие. Краснодар: 2000; Гаухман Л.Д. Квалификация преступлений: закон, теория, практика. М.: 2003.
5. Дагель П.С. Понятие вины в советском уголовном праве//Материалы XII конференции ДВГУ. Ч. IV, Владивосток: 1968.
6. Дагель П.С. Содержание, форма и сущность вины в советском уголовном праве//Правоведение, 1969, № 1.
7. Рарог А.И. Квалификация преступлений по субъективным признакам. М.: СПб., Юридический центр Пресс, 2003.
8. Ağayev İ. Cinayət tərkibi. Bakı: Təhsil, 2005.
9. Сборник постановлений Пленума Верховного Суда СССР, 1924-1986 гг., М.: 1987.

## СУБЪЕКТИВНЫЕ ПРИЗНАКИ ДЕЙСТВИЙ ПО ОСУЩЕСТВЛЕНИЮ ПЫТОК

**Ф.Г.МИРАЛАМОВ**

### РЕЗЮМЕ

Исследование посвящено анализу субъективных действий по осуществлению пыток. Обращается особое внимание на вопросы, составляющие субъективную основу уголовной ответственности. Наряду с этим, в статье затрагивается также и решение проблем, связанных с такими формами вины, как покушение и неосторожность, приводится исследование, связанное с вопросом юридической природы субъективных элементов. В исследовании анализируются также и вопросы, связанные с мотивами и целью преступления.

## THE SUBJECTIVE SIGNS OF ACTIONS ON REALIZING TORTURES

**F.H.MIRALAMOV**

### SUMMARY

The investigation is devoted to the analysis of subject actions on realizing tortures. Great attention is paid to the matters composing the subjective basis of criminal responsibilities. At the same time in the given article it is also considered the solution of problems connected with such forms of quilt like imprudence and attempt at somebody's life. Some investigations of legal nature of subjective elements as well. I a the given article it is also analyzed the matters connected with motives and the aim of crime as well.